# Qazax: tərəqqi və yüksəliş yolunda

*Bu gün respublikanın qərb qapısı olan Qazax mənfur düşmənlə 168 kilometr sərhədə malikdir. Məlum Qarabağ münaqişəsi zamanı 12 kənd işğal edilsə də, Ümummilli Liderin rəhbərliyi altında onlardan 5-i qısa zamanda işğaldan azad edilmişdir. Hazırda Qazax rayonunun 13 kəndinin müntəzəm olaraq mənfur düşmən tərəfindən atəşə tutulması kəndlərdəki həyat şəraitini çətinləşdirsə də, əhali Prezidentimizə və Ordumuza güvənərək ata-baba yurdlarında möhkəm dayanırlar. Qazax Rayon İcra Hakimiyyətinin başçısı Rəcəb Babaşovun rəhbərliyi ilə cəbhə bölgəsində düşmən mövqelərinə ən yaxın kəndlərdən biri olan Məzəm kəndində 700 metr uzunluğu, 3 metr hündürlüyü olan istinad divarı qısa müddət ərzində inşa olunub, Quşçu Ayrım kəndinin əhalisinin təhlükəsizliyini təmin etmək məqsədilə yaşayış evlərinin düşmən mövqelərinə baxan pəncərələrinin hörülməsi üçün kənd sakinlərinə tikinti materialları verilmişdir. Quşçu Ayrım və Bala Cəfərli kəndlərində də istinad divarının çəkilməsi işi sürətlə davam etdirilir. İcra başçısının cəbhə kəndlərində tez-tez əhali ilə görüşləri, onların problemlərini dinləyib əsasən yerində həll etməsi əhali tərəfindən yüksək qiymətləndirilir. Torpaqlarımız uğrunda gedən döyüşlərdə canından keçmiş şəhidlərin əziz xatirəsi həmişə böyük ehtiramla yad edilir. Rayon icra hakimiyyəti başçısının göstərişi və birbaşa rəhbərliyi ilə Daş Salahlı və Yuxarı Salahlı kəndlərindəki, Qazax şəhərindəki Şəhidlər xiyabanlarında yenidənqurma və abadlıq işləri aparılmışdır ki, bu da şəhid ailələrinin, həmçinin bütün rayon əhalisinin böyük razılığına səbəb olmuşdur.*

















Bu ilin aprel ayının əvvəllərində düşmənin hücumunun qarşısını alaraq torpaqlarımızın əsasən strateji yüksəkliklərin yerləşdiyi bir hissəsini işğaldan azad edərkən qəhrəmancasına həlak olmuş hərbçilərimizin xatirəsini əbədiləşdirmək üçün qısa müddət ərzində Qazax şəhərinin Heydər Əliyev prospektində üç ünvanda Xatirə-Bulaq Kompleksləri tikilərək əhalinin istifadəsinə verilmişdir.

Rayonda aparılan irimiqyaslı tikinti, quruculuq və abadlıq işləri geniş vüsət almışdır. Uzun illərdir ki, Qazax-Canalı-Kosalar yolu bərbad vəziyyətdə idi. 10 kilometr uzunluğu olan bu yolu sakinlər çox çətinliklə və uzun müddətdə qət edib mənzil başına çatırdılar. Müasir standartlara cavab verən formada yenidən qurulan bu yolun açılışını ölkə Prezidenti Qazax rayonuna səfəri zamanı etmişdir.

Bu günlərdə Kosalar kəndinə yollandıq. Görünən o idi ki, illərlə baxımsız qalmış magistral yolun və kənd daxili yolların yenidən qurulması və əsaslı təmiri kənd sakinlərinin ürəyincə idi. İlk yaxınlaşdığımız sakin Kosalar kənd tam orta məktəbinin tarix müəllimi Nazim Alqazaxov kənd sakinləri adından ölkə başçısı cənab İlham Əliyevə qazaxlılara göstərdiyi sonsuz diqqət və qayğıya görə dərin minnətdarlığını bildirdi. O qeyd etdi ki, rayona yeni təyin olunmuş Rəcəb müəllim tez-tez kəndə gəlir, səyyar görüşlər təşkil edir, sakinlərin problemləri ilə maraqlanır. Məsələn, sakinlərin müraciəti əsasında bir artezian quyusu qazılaraq istismara verildi. Kənddə işıq, qaz, su təminatı fasiləsizdir, rabitə poçt xidməti və tibb məntəqəsi əhaliyə yüksək xidmət göstərir. Yeri gəlmişkən, Qazax şəhəri Şamo Çobanov küçəsinin sakinlərinin 1905-ci ildə inşa edilmiş və illərlə baxımsız qalmış yaşayış evlərinin damının qısa müddətdə əsaslı təmir edilərək yenidən qurulmasına görə rayon icra hakimiyyətinin rəhbərliyinə dərin minnətdarlığını da xatırlatmağa dəyər.

Rayonda "Heydər Əliyev Mərkəzi", bir "Şahmat Mərkəzi", bir "Gənclər Mərkəzi", bir rəsm qalereyası, bir poeziya evi, 21 mədəniyyət evi, 43 kitabxana, 2 uşaq musiqi məktəbi, 24 klub, bir dram teatr, bir kinoteatr, bir dövlət qoruğu, 3 muzey və bir ev muzeyi vardır. Qazaxda 112 daşınmaz tarix və mədəniyyət abidəsi var ki, bunlardan 45-i memarlıq, 54-ü arxeoloji, 7-si monumental və xatirə, 5-i isə dekorativ tətbiqi sənət nümunələridir. 1984-cü ildə yaradılmış Qazax Tarix-Diyarşünaslıq muzeyi uyğunlaşdırılmış köhnə poçt binasında yerləşdirilmişdi. 2015-ci ilin noyabr ayında muzeyin təməli qoyuldu, inşaat işləri sürətlə davam etdirilərək 2016-cı ilin oktyabr ayında başa çatdırıldı. Milli ornamentlər qorunmaqla müasir üslubda inşa edilmiş möhtəşəm binanın açılışını cari il oktyabr ayının 19-da ölkə Prezidenti cənab İlham Əliyev Qazaxa səfəri zamanı etdi. Binanın ümumi sahəsi 1728 kv.m-dir, burada 2615 ədəd eksponat vardır. Üçmərtəbəli binanın birinci mərtəbəsində ümummilli lider Heydər Əliyevin və Azərbaycan Prezidenti İlham Əliyevin fəaliyyətini əks etdirən fotolardan ibarət guşələr yaradılıb. Həmçinin bu mərtəbədə Muzey barədə ümumi məlumat, təbiət, arxeologiya, qədim daş dövrü, orta əsrlər və "bəy evi" bölmələri var. Tarix-Diyarşünaslıq Muzeyinin ikinci mərtəbəsində "Qazax xalça məktəbi", "Etnoqrafiya və folklor", "Qazax XIX-XXI əsrin əvvəllərində", "Səməd Vurğun", "Görkəmli şəxsiyyətlər", "1929-1990-cı illər", "Müasir dövr" və "Azərbaycan XXI əsrdə" bölmələri yaradılıb. Burada Qazaxın qədimdən bu günədək keçdiyi inkişaf yolu, təbiəti, mədəniyyəti, adət-ənənəsi, məişəti, tanınmış insanları haqda maraqlı məlumatlar və eksponatlar toplanıb. Binanın mansardında isə iş otaqları, konfrans zalı, kitabxana, mətbəx və kafe fəaliyyət göstərir. Muzeyin binası müasir havalandırma sistemi və müşahidə kameraları ilə təchiz edilib. Bu muzey şəhərin Heydər Əliyev prospektində yerləşir və prospektə xüsusi gözəllik verir.

Qazaxda son dövrlərdə təhsilin maddi-texniki bazası gücləndirilmiş, bu sahədə bir sıra nailiyyətlər əldə olunmuşdur. 2016-2017-ci tədris ilində məcburi köçkünlər üçün rayonun Qazaxbəyli kəndində 220 yerlik müasir tipli İKT və digər zəruri avadanlıqlarla təchiz olunmuş yeni məktəb binasının açılışı olub. Açılışı rayon icra hakimiyyətinin başçısı Rəcəb Babaşov etmişdir. Məktəbdə fənn kabinələri, idman zalı, yeməkxana, laboratoriya və digər yardımçı otaqlar fəaliyyət göstərir. Bina mərkəzləşmiş istilik sistemi ilə təchiz olunmuşdur. Elə həmin gün şəhid Zahid Mahmudov adına 480 şagird yerlik Yuxarı Salahlı kənd tam orta məktəbinin yeni tikilmiş tədris binasının və əsaslı təmirdən sonra Qazax şəhər 1 saylı tam orta məktəbin açılışları da olmuşdur.

Burada elmə, təhsilə həmişə xüsusi diqqət yetirilmişdir. Məhz bu baxımdan ölkə Prezidenti cənab İlham Əliyevin 29 aprel 2016-cı il tarixli sərəncamı ilə iyul ayının 1-dən etibarən rayonda Bakı Dövlət Universitetinin Qazax filialının fəaliyyətə başlaması rayon ictimaiyyətinin sevincinə səbəb olmuşdur. Bu ali təhsil müəssisəsi respublikamızın qərb bölgəsində və Gürcüstan respublikasında yaşayan soydaşlarımıza töhfədir. Filialın direktoru professor Vüsət Əfəndiyev söhbət zamanı bildirdi ki, rayon rəhbərliyinin qayğısını öz üzərlərində hiss edir. Məsələn, filialın yeni binasının, yataqxananın və digər zəruri binaların tikintisinə yer ayrılması ilə bağlı müraciətimiz RİH başçısının dəstəyi ilə müsbət həll olundu. Belə ki, şəhərciyin salınması üçün 5 hektar torpaq sahəsi ayrıldı.

Qazaxda ölkə başçısı cənab İlham Əliyevin tapşırığı ilə qeyri-neft sektorunun inkişafına xüsusi diqqət yetirilir. Qısa zaman kəsiyində rayonun Birinci Şıxlı kəndində bir hektar ərazidə kəndli-fermer təsərrüfatı yaradıldı. MMC-nin yaradılmasında məqsəd kənd təsərrüfatına yararlı əkin sahələrindən səmərəli istifadə, əhalinin ərzaq məhsulları ilə təminatının yaxşılaşdırılması, yeni iş yerlərinin yaradılmasıdır. Müəssisədə hazırda 31 nəfər daimi işlə təmin olunmuşdur. İşçilərin əməkhaqqı 250-500 manat civarındadır. Burada məhsulun yuyulması, çeşidlənməsi və qablaşdırılması mümkündür. Kəndli-fermer təsərrüfatı 657,5 hektar sahə icarəyə götürmüşdür. Təsərrüfatda Gəncə Avtomobil Zavodunun istehsalı olan 5 ədəd traktor (kotanla birlikdə), 2 ədəd taxılsəpən, 2 ədəd qoşqu vardır, digər texnikaların alınması da nəzərdə tutulur. Hazırda 415 hektar sahədə buğda səpini aparılmışdır. Qalan sahədə kartof əkini planlaşdırılır. Biz müəssisədə olanda işçilər sahədə gəmiricilərə qarşı dərmanlama işi aparırdılar. Binada işçilərin səmərəli istirahəti üçün hər cür şərait yaradılmışdır. Kəndli-fermer təsərrüfatının işçisi, Birinci Şıxlı kəndinin sakini Məleykə Mustafayeva bizə yaxınlaşaraq bildirdi ki, bu müəssisə açılanadək işsiz olmuşdur. Rayon rəhbərliyinə işlə bağlı müraciət etdikdən sonra burada işlə təmin olunmuşdur. Qeyd etmək lazımdır ki, bu müəssisənin də açılışını Respublika Prezidenti cənab İlham Əliyev etmişdir.

Qazaxda aparılan genişmiqyaslı quruculuq-abadlıq işləri rayonun simasını büsbütün dəyişir, sözün əsl mənasında gözəlliklər diyarına çevirir. Rayonun ərazisinə giriş lövhəsinin ətrafında yenidənqurma və abadlıq işləri aparılaraq şəbəkələr qurulmuş, 5000 $m^2$ sahəyə qazon otu döşənmiş, su xətti çəkilmiş və işıqlanma sistemi qurulmuşdur. Həmin ərazidə Azərbaycanın ilk hərbi təyyarəçisi Fərrux Ağa Qayıbovun xatirəsinə Təyyarə abidəsi ucaldılmışdır. Bundan əlavə, bayraq meydanında və Nərimanov qəsəbəsindəki dairəvi yolda əsaslı təmir işləri aparılaraq abidələr tamamilə yenidən qurulmuş və ətrafında geniş abadlıq-quruculuq işləri aparılaraq qazon otu əkilmiş və yeni işıqlanma sistemi quraşdırılmışdır. Heydər Əliyev Parkı ərazisində yaradılmış süni gölün içərisində işıqlandırma sistemi ilə təchiz edilmiş yeni fəvvarə kompleksi quraşdırılaraq istifadəyə verilmişdir.

Şəhərin mərkəzindəki Mütəfəkkirlər Parkı yenidən qurulur, görkəmi tamamilə dəyişdirilir. Parkda cürbəcür dekorativ ağac və gül kolları əkilir, bəzəkli gecə lampaları quraşdırılır. Qısa müddət ərzində inşaat işləri başa çatacaq və park qazaxlıların ən sevimli istirahət mərkəzlərindən birinə çevriləcəkdir.

Qazax mərkəzi bazarındakı antisanitar vəziyyətə icra başçısının məsələyə müdaxiləsi nəticəsində dərhal son qoyulmuş, bazarda rayonun yerli məhsullarının satışı üçün daha da münbit şərait təşkil edilmiş, piştaxtaların sayı artırılmış, bazardan kənarda antisanitar qaydada satış qadağan olunmuşdur. Bazarın qarşısında aparılan təxirəsalınmaz tədbirlər nəticəsində avtomobillərin sərbəst və maneəsiz hərəkətinə şərait yaradılmışdır. Bundan başqa şəhərin Ə.Şıxlinski küçəsində açılmış yeni bazarda kənd təsərrüfatı məhsullarının topdan və pərakəndə satışı təşkil olunmuşdur.

Rayonun kənd yaşayış məntəqələrində 80 km uzunluğunda kənddaxili yollara qum-çınqıl döşənmiş, bu istiqamətdə işlər davam edir. Məzəm və Quşçu Ayrım kənd sakinlərinin rayon mərkəzinə təhlükəsiz gediş və gəlişini təmin etmək məqsədilə Qazax-Quşçu Ayrım avtomobil yolunun Alpout kəndi ilə Quşçu Ayrım kəndini birləşdirən hissəsində alternativ olaraq ikinci yolun çəkilişi işləri davam edir. Əhalinin içməli suya olan tələbatını təmin etmək məqsədilə ürkməzli kəndində bir ədəd 20 tonluq, bir ədəd 16 tonluq su çəni və bir ədəd su nasosu quraşdırılmış, 2 km uzunluğunda su xətti, Dəmirçilər kəndində bir kilometr uzunluğunda içməli su xətti, Aslanbəyli kəndində isə bir ədəd 5 tonluq su çəni quraşdırılmış və 350 metr uzunluğunda içməli su xətti çəkilmişdir. Qazax rayonunda Perspektiv inkişaf proqramına əsasən 110/35/6 kilovoltluq Daş Salahlı və 35/10 kilovoltluq Qazax1 yarımstansiyaları yeni müasir tipli avadanlıqlarla təmin olunmuşdur. Yaxın vaxtlarda Qazax şəhərinin su-kanalizasiya sisteminin yenidən qurulması işlərinə başlanılması nəzərdə tutulmuşdur. Qaymaqlı kəndində fəaliyyət göstərən fermada lizinq yolu ilə gətirilmiş 75 baş düyədən 76 buzov alınmış, hazırda təsərrüfatda əlavə tikinti işləri başa çatmış və daha 100 baş cins düyələrin gətirilməsi istiqamətində danışıqlar aparılır. Daş Salahlı, Çaylı, Kosalar və Xanlıqlar kəndlərində hər birində bir ədəd olmaqla 4 ədəd subartezian quyularının qazıntısına başlanılmışdır. Bundan əlavə, daha 5 ədəd subartezian quyularının qazılması nəzərdə tutulmuşdur.

Qazax ictimaiyyətinin müxtəlif təbəqələrinin nümayəndələri ilə apardığımız söhbətlərdən və rayonun gündən-günə gözəlləşən mənzərəsindən, inkişafı üçün həyata keçirilən hərtərəfli tədbirlərdən belə qənaətə gəlmək olar ki, hazırda Qazax özünün tərəqqi və çiçəklənmə dövrünə qədəm qoyub.

**Vəli VƏLİYEV,**
**"Respublika".**







